# Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı xarici ölkələrdə etiraz aksiyaları keçirilib

**Nyu York**

Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları Ermənistanın BMT-dəki daimi nümayəndəliyi və BMT-nin baş qərargahı qarşısında etiraz aksiyası keçiriblər.

"Nyu York Azərbaycan-Amerika Qadınlar Cəmiyyəti" və "Azərbaycan Nyu York Assosiasiyası"nın birgə təşkil etdiyi aksiyada Qarabağ münaqişəsinin həqiqətlərinin əks olunduğu plakatlar, şəkillər nümayiş olunub, Ermənistanın etnik təmizləmə və işğalçı siyasətinə qarşı şüarlar səslənib, baş vermiş hadisələr barədə ətraflı məlumat verilib, çıxışlar edilib və Xocalı soyqırımı haqqında ətraflı məlumatın əks olunduğu vərəqələr çap olunaraq yerli əhaliyə paylanılıb.

Bu təşkilatlarla yanaşı, etiraz aksiyalarına "Türkiyə-Amerika Assosiasiyası", Krım tatarları cəmiyyəti, Nyu Yorkda təhsil alan azərbaycanlı və türk tələbələr də qatılıblar.



**Berlin**

Almaniyada fəaliyyət göstərən Azərbaycanlı Tələbə və Elmi İşçilər Birliyi, Berlin "Azərbaycan Evi" və "Leqat" İnteqrasiya Mərkəzinin təşkilati dəstəyi ilə Berlindəki Ermənistan səfirliyi qarşısında Xocalı faciəsinin 26-cı ildönümünə həsr olunmuş etiraz aksiyası keçirilib. Etiraz aksiyasında Almaniya və Avropanın müxtəlif məkanlarından gəlmiş 100-ə yaxın soydaşımız fəal iştirak edib.

Çıxışçılar Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasətini pisləyərək, alman və Avropa ictimaiyyətini buna göz yummamağa və işğal siyasətinə son qoymağa çağırıblar. Aksiyada iştirak edən soydaşlarımızın yekdil fikrinə əsasən, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çəkilmədiyi müddət ərzində kütləvi etiraz aksiyaları hər il daha böyük fəallıqla davam etdiriləcək.

**Kişineu**

Fevralın 26-da Moldova Azərbaycan Konqresinin gənclər təşkilatı ilə Moldova Azərbaycanlı Tələbələr Birliyi Kişineunun mərkəzi meydanında yerləşən Ştefan Şel Mare heykəlinin önündə fləşmob təşkil ediblər.

Azərbaycanın Moldovadakı səfirliyindən verilən məlumata görə, fləşmobdan sonra azərbaycanlı gənclər Ermənistan səfirliyinə yürüş aksiyası keçiriblər.

Aksiya yerli əhalinin Xocalı faciəsinə diqqətini cəlb etmək və azərbaycanlılara qarşı həyata keçirilən bu soyqırımı aktı barədə ictimaiyyəti məlumatlandırmaq məqsədini daşıyıb. Aksiya iştirakçıları tərəfindən Xocalı soyqırımı barədə təbliğat xarakterli bukletlər yolboyu Kişineu sakinlərinə və turistlərə paylanılıb.

Əllərində plakatlar və Azərbaycan bayraqları tutan gənclər "Xocalıya ədalət!", "Təcavüzə son!", "Qarabağ bizimdir və bizim olacaq!", "Serj Sarkisyan terroristdir!" şüarları ilə Ermənistan səfirliyinin önünə qədər yürüş edərək orada aksiyanı davam etdiriblər.

Moldova Azərbaycan Konqresinin gənclər təşkilatının sədri Səfər Məmmədov aksiya iştirakçıları qarşısında çıxış edib, dünya dövlətlərini, beynəlxalq təşkilatları Ermənistanın təcavüzkar siyasətinə sərt reaksiya verməyə çağırıb.

Moldova Azərbaycanlı Tələbələr Birliyinin sədri Orxan Ağayev yerli mediaya müsahibəsində qeyd edib ki, burada yaşayan azərbaycanlı gənclər bu aksiya ilə bütün dünyaya erməni işğalçılarının dinc sakinlərə qarşı törətdikləri amansız cinayətləri çatdırmaq istəyir.

Sonda aksiya iştirakçıları tərəfindən Moldovada BMT-nin və ATƏT-in nümayəndəliklərinə Xocalı soyqırımının tanınması, faciənin günahkarlarının cəzalandırılması, bu soyqırımına beynəlxalq səviyyədə obyektiv siyasi-hüquqi qiymətin verilməsi tələbi ilə bəyannamə çatdırıblar.

***AZƏRTAC***

Azərbaycan.- 2018.- 28 fevral.- S.9.